**Azərbaycan Respublikası gömrük orqanlarının 2011-ci il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə fəaliyyətinin nəticələri haqqında məlumat-analitik arayış**

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə Azərbaycan Respublikası gömrük orqanlarının əsas fəaliyyət istiqamətlərindən biridir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 2011-ci ildə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, eləcə də narkomaniyanın yayılması ilə mübarizə üzrə dövlət Proqramı (2007-2012-ci illər)»-nın icrasını uğurla həyata keçirmək üçün bütün qüvvələri səfərbər etməklə kompleks tədbirlər həyata keçirmişdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi üzrə 138 fakt aşkar edilmişdir.

2011-ci ildə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən qanunsuz dövriyyədən 227 kq. 565 qr. əsasən «ağır» və «güclü təsirli» narkotik vasitə və psixotrop maddələr çıxarılmışdır. Qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin 195 kq. 275 qr.-nı, başqa sözlə 70 %-ni həşiş təşkil etmişdir. Bundan əlavə 5 kq. 448 qr.-nı tiryək, 19 kq. 184 qr.-nı heroin, 6 kq. 875 qr.-nı metamfetamin və digər narkotiklər təşkil etmişdir.

Ciddi narahatlıq doğuran məsələlərdən biri də tutulan narkotiklərin içərisində güclü təsirli narkotik vasitə olan heroinin xüsusi çəkisinin 14 % təşkil etməsidir. Bu faktlar üzrə 133-ü kişi və 21-i qadın olmaqla 154 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir. Son zamanlar qadınların narkokuryerlər qismində istifadə edilməsi faktlarının sayının artması müşahidə edilir. Son 5 il ərzində məsuliyyətə cəlb olunanların 70-ni və ya başqa sözlərlə desək 14,73 faizini qadınlar təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, narkotiklərin qaçaqmalçılığı üzrə faktların analizi zamanı cinayətkar qrupların mütəşəkkilliyi və transmilliliyi daha aydın görünür. Yalnız 2011-ci il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən 11 cinayətkar qrup aşkarlanıb zərərsizləşdirilmişdir.

Bu qrupların arasındakı yüksək təşkilatçılıq, dəqiq iş bölgüsü və onların transmilli xarakteri nəzərə alınmaqla Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi beynəlxalq təşkilatlar, xarici ölkələrin Gömrük Xidmətləri və digər hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq edir və bu əməkdaşlığı daim inkişaf etdirir.




Bu əməkdaşlığa nümunələr qismində 18-19 iyul 2011-ci il tarixlərində Bakı şəhərində keçirilən «Transmilli narkoqrupların qarşısının alınmasına yönəlmiş fəaliyyətin əlaqələndirilməsinə dair İşçi Görüş»-ü göstərmək olar. Bu tədbirə Azərbaycan da daxil olmaqla 16 ölkənin, o cümlədən Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Çin, Rusiya, Ukrayna, Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, İsveç, ABŞ və Kanadanın, eləcə də Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin və Cənub-Şərqi Avropa üzrə Əməkdaşlıq Təşəbbüsü Mərkəzinin nümayəndələri qatılmışdır.

Narkotiklərlə mübarizədə mühüm rol oynayan digər beynəlxalq görüş isə 17-18 oktyabr tarixlərində yenə də Bakı şəhərində keçirilən «Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinin Qarşısının Alınmasına dair Beynəlxalq Konfrans»-dır. Bu vacib tədbirdə 40 ölkə və 6 beynəlxalq təşkilatı təmsil edən 78 nümayəndə iştirak etmişdir.

2011-ci il ərzində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Müstəqil Dövlətlər Birliyi Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq-mühafizə Bölmələri Başçıları Komitəsinin «Çasavoy-2011» və GUAM-ın «Narkostop-2011» şərti adları altında keçirdikləri beynəlxalq əməliyyatlarda iştirak etmişdir. «Çasavoy-2011» əməliyyatı zamanı təkcə Azərbaycan Respublikasında 1144,541 qram tiryək, 710,868 qram heroin, 8,0010 qram metamfetamin və «Narkostop-2011» əməliyyatı zamanı isə 327,994 qram heroin, 151,779 qram tiryək, 2,5 qram alprazolam, 0,198 qram metamfetamin, 48,4 qram qurudulmuş marixuana, 100,013 qram kokain, 1,114 qram metadon qanunsuz dövriyyədən çıxarılmışdır.

2011-ci ildə Azərbaycan Respublikası ərazisinə İran İslam Respublikasının ərazisindən gömrük nəzarətindən gizlədilərək gətirilən güclü təsirli metamfetamin adlı maddənin Malayziya və Taylanda hava nəqliyyatı vasitəsilə qaçaqmalçılıqla daşınması cəhdləri davam etdirilmişdir. Azərbaycan Respublikası gömrük orqanları tərəfindən 2011-ci il ərzində 6 kq. 875 qr. metamfetamin aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır (foto 1).




28 iyun 2011-ci il tarixdə narkotiklərin qaçaqmalçılığı kanallarının aşkar edilib qarşısının alınması üzrə milli təhlükəsizlik orqanları ilə birgə məqsədli əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi nəticəsində 121 kq. həşiş aşkarlanaraq götürülmüşdür.

20.02.2011-ci ildə Astara Gömrük İdarəsində «KAMAZ» markalı yük avtomobilinə gömrük baxışı keçirilən zaman mərmər plitələri içərisində 19 kq. 915 qr. həşiş keçirməyə cəhd edən Azərbaycan vətəndaşı saxlanılmışdır. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində, həmçinin qeyd olunan narkotik vasitəni alacaq şəxslər də yaxalanmışdır (foto 2).



21.12.2011-ci il tarixdə Astara Gömrük Buraxılış Məntəqəsində «MAN» markalı sərnişin avtobusuna keçirilmiş gömrük baxışı zamanı həmin avtobusun sürücüləri olan İran İslam Respublikası vətəndaşları yaxalanmışlar. Xidməti itin

reaksiyası əsasında avtobusda olan karton materialdan hazırlanmış 3 qutuya baxış keçirilmişdir və nəticədə bu qutuların divarları arasındakı gizli saxlanc yerindən 1 kq. 145 qr. tiryək aşkar olunmuşdur (foto 3).





2011-ci il ərzində narkoqaçaqmalçılar tərəfindən narkotiklərin gizlədilməsi üçün müxtəlif hiyləgər metodlar istifadə olunmuşdur.

2010-cu illə müqayisədə 2011-ci ildə daxili orqanlarda, yəni mədədə, düz bağırsaqda, qadının cinsi orqanında və ağızda gizlətmə yolu ilə narkotiklərin qaçaqmalçılıqla keçirilməsinə dair aşkar edilmiş faktların sayı 2 dəfə artmışdır. Ümumilikdə 2011-ci ildə narkotiklərin daxili orqanlarda gizlədilməsi yolu ilə qaçaqmalçılığına dair 51 fakt aşkarlanmışdır.

Narkotiklər 16 halda əl yüklərində, 51 halda öz üzərində, 8 halda avtobusda, 4 halda minik avtomobilində, 5 halda mədədə, 8 halda yük maşınında, 6 halda qadının cinsi orqanında, 39 halda düz bağırsaqda, 1 halda ağızda və 1 halda saçların arasında gizlədilmişdi. Narkotiklər, xüsusilə çantalarda, ciblərdə, paltar altında, bədən üzərində, avtomobilin müxtəlif hissələrində mərmər plitələrinin içərisində və digər yerlərdə gizlədilmişdir.

2011-ci ildə aşkar olunmuş faktların təhlili və əldə edilmiş əməliyyat məlumatları göstərir ki, narkoqaçaqmalçılar Azərbaycan ərazisindən istifadə etməklə narkotikləri əsasən Rusiya Federasiyası ərazisinə daşımağa cəhd göstərirlər. Bununla yanaşı Azərbaycan Respublikası ərazisindən, həmçinin metamfetamin adlı psixotrop maddənin Malayziya və Taylanda daşınması üçün «tranzit məntəqə» kimi istifadə edilməsi cəhdləri də qeydə alınmışdır. Bu narkotik İranda fəaliyyət göstərən narkoişbazlar arasında «şişə» adı ilə tanınır. Metamfetaminin qaçaqmalçılıq yolu ilə gömrük sərhədindən keçirilməsi üçün narkoqruplar hiyləgər marşrutlar və gizlətmə üsullarından istifadə etmişlər (foto4).








Azərbaycan Respublikası gömrük orqanlarında narkotiklərin axtarışı üçün xidməti – axtarış itlərindən aktiv şəkildə istifadə olunur. Eyni zamanda 100 xidməti itin təlimi, baytar müayinəsi və müalicəsini həyata keçirməyə imkan verən, bütün müasir standartlara cavab verən, təlim meydançaları və tibbi avadanlıqlarla təchiz olunmuş Kinoloji Mərkəzdə hazırlıq keçmiş 39 xidməti it gündəlik fəaliyyətdə tətbiq olunur. 2011-ci ildə xidməti itlər tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılığı üzrə 15 fakt aşkar olunmuşdur ki, bunun da nəticəsində qanunsuz dövriyyədən 25 kq. 427 qr. həşiş, 1 kq. 292 qr. tiryək, 5 kq. 228 qr. heroin və 2 kq. 320 qr. metamfetamin çıxarılmışdır (foto 5).








  

**Tərtib etdi: Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsi Əməliyyat İdarəsinin Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə şöbəsi**